

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 24 sentyabr 2025-ci il №68 (2977) https://mod.gov.az Qiyməti 30 qəpik


## Ümummilli Lider Heydər Əliyev irsi və ordu quruculuğu

Dövlətin, cəmiyyətin inkişafını müəyyən edən mühüm faktorlardan biri də lider fenomenidir. Məhz böyük şəxsiyyətlər fəaliyyətləri, irəli sürdükləri ideyalar və qəbul etdikləri qərarlarla xalqın və dövlətlərin tarixinə təsir göstərmək imkanına malik olurlar. Liderlik fenomeni tarix boyu dövləti, xalqı müəyyən amal uğrunda səfərbər edən, irəliyə doğru aparan qüvvə kimi çıxış edib. Belə şəxsiyyətlər öz əməlləri və ideyaları ilə xalqlarının tarixində o qədər dərin iz qoyurlar ki, millətin və dövlətin tərəqqisinin həmin dövrü birbaşa onların adları ilə bağlı olur. Bu gün Azərbaycanın bir dövlət kimi mövcudluğu, stabil və dinamik inkişafı liderlik amili ilə birbaşa bağlıdır.

Tarix onu yaradanların tarixidir. Çünki tarixin dəyəri onu yaradan, tarixi prosesləri istiqamətləndirən, nəhayət tarixin gedişatını dəyişməyi bacaran böyük şəxsiyyətlərlə ölçülür. Heydər Əliyev məhz tarix yaradan fenomenal şəxsiyyət idi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka və fitri istedad sahibi, müdrik dövlət xadimi kimi yazılmışdır.

Müasir tariximizin çox vacib bir dövrü, habelə bugünkü həyatımız bu böyük şəxsiyyətin siyasi iradəsi, dövlətçilik təfəkkürü, idarəetmə qabiliyyəti ilə müəyyən olunub. Heydər Əliyev tarixə Azərbaycan dövlətinin müstəqilliyinin dönməzliyini, milli varlığın, milli ideyanın və milli şüurun yaşamasını təmin edən, azərbaycançılığı dövlət ideologiyasına çevirən, istənilən vəziyyətdən öz ölkəsinin, xalqının, dövlətinin mənafeyinə yararlanmağı bacaran bir lider kimi düşüb.



Müasir Azərbaycanın, o cümlədən qüdrətli Ordumuzun formalaşması Ümummilli Lider Heydər Əliyevin dövlətçilik təfəkkürünün, siyasi uzaqgörənliyinin və təşkilatçılıq qabiliyyətinin məntiqi nəticəsidir. Ordu quruculuğu sahəsində Heydər Əliyev irsinin əvəzsiz dəyəri ondadır ki, hakimiyyətdə olduğu illərdə Ümummilli Lider Azərbaycan Ordusunu və onun formalaşması prosesini diqqət mərkəzində saxladı. Azərbaycanın tarixi ənənələrinin davam etdirilməsi, gənclərin vətənpərvər ruhda formalaşması, sərkərdələrin və görkəmli hərb xadimlərinin şərəfli yolunun yaşadılması Ulu Öndərin hər zaman diqqət mərkəzində olub.

Ümummilli Lider Heydər Əliyevin Sovet dövründə diqqət yetirdiyi məsələlərdən biri də SSRİ Silahlı Qüvvələri tərkibində azərbaycanlı zabitlərin məsul vəzifələrdə olmasını və vəzifə təyinatlarında necə irəliləməsini daim izləyirdi. Çalışırdı ki, yüksək vəzifəli Sovet zabitləri arasında azərbaycanlılar da olsun. Xidmətləri ilə fərqlənən zabitlərin və generalların daha yüksək və məsuliyyətli vəzifələrə təyin olunmasına yardımçı olur və müsahibələrində bunu özü də məmnunluqla xatırlayırdı.

(Ardı 3-cü səhifədə)

## R.T.Ərdoğan: Avqustun 8-də Azərbaycanla Ermənistan arasında davamlı sülhə gedən addımların atılmasından məmnunluq duyuram

Azərbaycan ilə Ermənistan arasında sülhün təmin olunması üçün tərəfləri ilk gündən dəstəklədik.

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nyu-Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyası çərçivəsində yüksəksəviyyəli debatlarda çıxışı zamanı deyib.

O bildirib ki, avqustun 8-də iki ölkə (Azərbaycan və Ermənistan) arasında davamlı sülhə gedən addımların atılmasından məmnunluq duyur.

"Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan başda olmaqla, prosesə dəstək verən ABŞ Prezidenti Donald Trampa bir daha təşəkkür edirəm. Bu mənada ölkəmizlə Ermənistan arasında normallaşma prosesinin öz axarı ilə davam etdiyini bildirmək istəyirəm", - deyə Ərdoğan əlavə edib.

## ANAMA: Ötən həftə 109 mina və 1286 partlamamış hərbi sursat zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən sentyabrın 15-21-də icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 95, tank əleyhinə 14 mina və 1286 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən həftə ərzində 1130,6 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.




## Ölümsüzlüyü qazanan qəhrəmanlar



Vətən bizim ürəyimizdə çəkilən ən təsirli, mənzərəsi ən gözəl rəsm əsəridir. Vətən bizim kimliyimizdir, ruhumuza hopan bir hissdir. Vətən ana torpaqdır. Bu torpaq uğrunda can da vermək, qan da tökmək hər birimizin mənəvi borcudur. Elə bu torpaq da birdən-birə Vətən olmadı. Şəhidlərimizin qanı ilə suvarılan bu torpaqlar bizə daha əziz, daha doğma oldu. Onlar canlarını Vətən uğrunda fəda etdilər, çünki bilirdilər ki, torpaq, uğrunda ölən varsa, Vətəndir!

Xüsusi Təyinatlı Qüvvələrin mənsubu, İkinci Qarabağ müharibəsi şəhidi, Vətən Müharibəsi Qəhrəmanı kapitan Rəşad Abdullayev də torpaqlarımızın azadlığı uğrunda şəhid olan qəhrəmanlarımızdandır.

(Ardı 4-cü səhifədə)

## Sülhü sevirik, Zəfərimizi qoruyuruq

Bəşəriyyət tarix boyu müharibələrin, qanlı qarşıdurmaların və faciələrin ağır nəticələri ilə üz-üzə qalıb. Bütün dünyanın arzuladığı ən böyük dəyər isə sülh olub. Sülh dövlətlərin sabitliyinin və cəmiyyətin inkişafının təməl daşıdır. Sülh təkcə müharibənin olması anlayışı ilə deyil, həm də ədalətin, düzgünlüyün, qarşılıqlı hörmətin, inamın hökm sürdüyü bir mühitdir. Müharibə yerlə yeksan edir, cəmiyyətə ağır günlər yaşadır, sülh isə qurur, yaradır və insanlara ümid, sevinc, xoşbəxtlik gətirir. Buna görə də sülhü qorumaq, onun dəyərini bilmək və daha da möhkəmləndirmək bütün xalqlar üçün arzulanan niyyətdir.

Sülh insanların ortaq arzusudur. Bu arzunu bəşəriyyət gerçəkləşdirməlidir. Dünyanın müxtəlif yerlərində baş verən silahlı münaqişələrin, müharibələrin sonu sülhlə nəticələnib. Çünki sonda həmişə insanlıq qalib gəlib.

(Ardı 5-ci səhifədə)

## “TEKNOFEST İstanbul”u ziyarət edənlərin sayı 1 milyonu ötüb

Bu il 13-cü dəfə İstanbulda keçirilən dünyanın ən böyük aviasiya, kosmos və texnologiya festivalı olan "TEKNOFEST"i 1 milyon 32 min nəfər ziyarət edib.

Bu barədə "TEKNOFEST"in qurucusu Selçuk Bayraktar "Nsosial" media platformasında açıqlayıb.

O, bu il "TEKNOFEST 2025" çərçivəsində keçirilən Şimali Kipr Türk Cümhuriyyəti, "Mavi Vətən" və "İstanbul bizimlə" tədbirlərində ümumilikdə 1 milyon 503 min nəfərin iştirak etdiyini bildirib.

Qeyd edək ki, bu il "TEKNOFEST İstanbul" çərçivəsində təşkil olunan 64 fərqli yarışmaya Türkiyənin 81 vilayəti ilə yanaşı, 96 ölkədən 565 min komanda və 1 milyon 200 min iştirakçı qatılıb.



"TEKNOFEST 2025"də iştirak etmək üçün Azərbaycandan 47 komanda seçilib. Onlardan 30-u Bakı Ali Neft Məktəbinin komandalarıdır.

Builki festivalın qalibləri arasında azərbaycanlı tələbələr də var.

# Azərbaycan Ordusunun Baş Qərargah rəisi Belqradda keçirilən hərbi paradda iştirak edib

*Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və onun rəhbərlik etdiyi nümayəndə heyətinin Serbiya Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-polkovnik Milan Moysiloviçin dəvəti ilə bu ölkədə səfərdə olub.*





Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə Belqrad şəhərində yerləşən Taşmaydan parkında Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə əklil qoyulub və xatirəsi ehtiramla yad edilib.

Səfər çərçivəsində general-polkovnik K.Vəliyev serbiyalı həmkarı ilə hərbi əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıb və Belqrad şəhərində keçirilən hərbi paradda iştirak edib.

Tədbirlərdə Azərbaycan Respublikasının Serbiya Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Kamil Xasiyev də iştirak edib.







# Azərbaycan Ordusunun Baş Qərargah rəisi belaruslu həmkarı ilə görüşüb



Belarus Respublikasında işgüzar səfərdə olan müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev sentyabrın 22-də bu ölkənin Silahlı Qüvvələrinin Baş Qərargah rəisi - müdafiə nazirinin birinci müavini general-mayor Pavel Muraveyko ilə görüşüb.

Müdafiə Nazirliyi xəbər verir ki, təkbətək və geniş tərkibdə keçirilən görüşlərdə hərbi əməkdaşlığın daha da genişləndirilməsi və inkişaf perspektivləri, habelə regional təhlükəsizlik məsələləri müzakirə edilib.

Tərəflər qarşılıqlı maraq doğuran mövzular barəsində də ətraflı fikir mübadiləsi aparıblar.



# Baş Qərargah rəisi Belarusda Azərbaycanın Milli Qəhrəmanının məzarını ziyarət edib









***Belarus Respublikasında səfərdə olan müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Slutsk şəhərində Azərbaycanın Milli Qəhrəmanı mayor Davidoviç Anatoliy Nikolayeviçin məzarını ziyarət edərək xatirəsini ehtiramla yad edib.***

Müdafiə Nazirliyi xəbər verir ki, sonra general-polkovnik K.Vəliyev Milli Qəhrəmanın anası Kima Davidoviçin evində olub, onun qayğıları ilə yaxından maraqlanıb. Mayor A.Davidoviçin qəhrəmanlığının Azərbaycan və Belarus xalqları arasında dostluq və qardaşlıq münasibətlərini daha da möhkəmləndirdiyi, xatirəsinin isə hər iki ölkədə daim ehtiramla yad olunduğu qeyd edilib.

Milli Qəhrəmanın anası övladının xatirəsinə olan ehtirama, eləcə də göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib.

# Xarici ölkələrin hərbi attaşeləri Heydər Əliyev adına Hərbi İnstitutda olublar



*Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi illik fəaliyyət planına əsasən, xarici dövlətlərin ölkəmizdə akkreditə olunmuş hərbi attaşelərinin Heydər Əliyev adına Hərbi İnstituta tanışlıq səfəri təşkil edilib.*



Müdafiə Nazirliyi xəbər verir ki, hərbi attaşelər əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hərbi təhsil ocağının ərazisində ucaldılan büstü önünə gül dəstələri qoyub, Ulu Öndərin xatirəsinə hörmət və ehtiram nümayiş etdiriblər. Sonra hərbi institutun Vətən müharibəsində şəhid olan hərbi qulluqçularının Xatirə kompleksi ziyarət olunub.



17 dövləti təmsil edən hərbi attaşelik aparatının nümayəndələri hərbi institutda şəxsi heyət üçün yaradılan şərait və tədris prosesi ilə tanış olublar.

Qonaqlara Heydər Əliyev adına Hərbi İnstitutun fəaliyyəti barədə brifinq təqdim olunub, onları maraqlandıran suallar cavablandırılıb.

Hərbi attaşelər, həmçinin hərbi təhsil ocağında yerləşən Heydər Əliyev Muzeyinə gələrək Ümummilli Liderin həyat və siyasi fəaliyyətini əks etdirən fotoguşə ilə tanış olub. Onlara Ulu Öndərin ordu quruculuğu sahəsində gördüyü işlər barədə məlumatlar verilib.

Hərbi attaşelər ziyarətin yüksək səviyyədə təşkilinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

# Ümummilli Lider Heydər Əliyev irsi və ordu quruculuğu

**(Əvvəli 1-ci səhifədə)**

Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə Bakıda iki ali hərbi məktəb fəaliyyət göstərirdi - Bakı Ali Ümumqoşun Komandirləri Məktəbi və Bakı Ali Hərbi Dənizçilik Məktəbi. Bu təhsil ocaqlarının hər ikisi İttifaq miqyasında sayılıb-seçilən məktəblərdən idi və təhsil almaq üçün İttifaqın müxtəlif şəhərlərindən bu məktəblərə gəlirdilər.

Ulu Öndər, ilk növbədə, öz qətiyyətini ortaya qoyaraq Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin rəhbərliyinə yüksək rütbəli azərbaycanlı kadrların gətirilməsinə nail oldu. Bu məktəbə qəbul olunanlar arasında azərbaycanlıların sayının artırılması üçün geniş təşkilati işlər aparıldı. Sovet hakimiyyəti dövründə milli zəmində aparılan hərbi-təşkilati işin zirvəsi isə Azərbaycanda internat məktəbinin bazasında C.Naxçıvanski adına Hərbi Liseyin yaradılması sayıla bilər. Bu məktəbin yaradılması Ümummilli Lider Heydər Əliyevin vaxt ötdükcə öz tarixi nailiyyətinin əhəmiyyətini daha da artıracaq böyük dühasının, öz xalqının gələcəyinə bağlılığının heç zaman unudulmayacaq nişanəsidir. Çox böyük maneələrin mövcud olmasına baxmayaraq, milli hərbi ənənələrin canlandırılması və gənclərin hərb işinə cəlb edilməsi üçün fövqəladə əhəmiyyətə malik olan belə bir təhsil ocağının açılması Ümummilli Liderin mübarizliyinin, fədakarlığının təntənəsi idi. Bu məktəbin açılışına nail olmaq üçün Ulu Öndər Heydər Əliyev həm də İttifaq rəhbərliyi ilə mübarizədən qalib çıxdı və bu mübarizliyi ilə həmin məktəbdə təhsil alan azərbaycanlılar üçün də canlı bir örnək oldu.

Ümummilli Lider C.Naxçıvanski adına Hərbi Liseyin yaradılmasını belə xatırlayırdı: "Mən bu gün böyük iftixar hissi ilə demək istəyirəm ki, milli ordumuzun yaranması haqqında biz vaxtilə düşünmüşük. Nəinki düşünmüşük, on illər bundan əvvəl tədbirlər görmüşük və onlar indi öz nəticəsini verir. Xatirimdədir, 1970-ci ildə, 25 il bundan öncə mən Azərbaycanda əvvəllər heç vaxt olmayan, analoqu olmayan ixtisaslaşdırılmış hərbi orta məktəb yaratmaq haqqında fikir irəli sürdüm. Bu məktəbi yaratdıq. Doğrudan da, mənim həyatımda gördüyüm işlər içərisində bu addımı, bu işi, bu təşəbbüsü o dövrdən artıq 25 il keçəndən sonra şəxsən özüm çox yüksək qiymətləndirirəm. Mən belə bir addım atarkən, təşəbbüs irəli sürərkən, o vaxt Sovetlər İttifaqının çərçivəsində belə bir qeyri-adi qərar qəbul edərkən təkcə o günləri yox, Azərbaycanın gələcəyini düşünürdüm. Mən çox istəyirdim ki, Azərbaycanın milli ordusu olsun. Əgər o vaxt milli ordu yaratmaq mümkün deyildisə, Sovetlər İttifaqı ordusunun tərkibində Azərbaycanın güclü zabit korpusu, zabitləri olsun. Mən istəyirdim ki, Azərbaycan zabitləri Sovetlər İttifaqı ordusunun tərkibində özlərinə layiq yer tutsunlar, respublikamızın mövqeyini müdafiə etsinlər və Azərbaycanın təsirini bütün Sovetlər İttifaqına yaya bilsinlər. Mən istəyirdim ki, zabitlər korpusumuz olsun, çünki bu, Azərbaycanın gələcəyi üçün lazım idi…".

C.Naxçıvanski adına Hərbi Lisey Heydər Əliyevin diqqət və qayğısı ilə qısa vaxt ərzində ən müasir hərbi təhsil müəssisəsinə çevrildi. Belə xüsusi diqqət və qayğı Azərbaycanda hərbçi peşəsinin nüfuzunun artmasında çox mühüm rol oynadı. Nəticədə orduda peşəkar hərbçilərin sayı da artdı. Bu təhsil ocağını bitirən neçə-neçə gənc Bakının ali hərbi məktəbləri ilə yanaşı, keçmiş SSRİ-nin ali hərbi məktəblərində hərbçi peşəsinə yiyələndilər. Onlar bu gün də Heydər Əliyevin yaratdığı məktəbin məzunları olmaqlarıyla qürur duyurlar.

1991-ci ilin sonlarında SSRİ-nin dağılması nəticəsində bir əsrdə öz müstəqilliyini ikinci dəfə bərpa edən Azərbaycan mürəkkəb ictimai-siyasi durumla üzləşmişdi. Keçmiş Ali Sovet Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaradılması barədə qərar qəbul etsə də, müstəqilliyin ilk illərində ordu quruculuğunda ciddi qüsurlara yol verildi, Azərbaycan Ordusunun yaranması sadəcə kağız üzərində qaldı. Ölkədəki ağır vəziyyət və iqtidarda olanların yaratdıqları xaos, özbaşınalıq, hərc-mərclik müstəqilliyimizi təhlükə qarşısında qoydu. Bundan istifadə edən düşmən torpaqlarımızı işğal etdi. 1993-cü ilin yayında Ümummilli Lider Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra ordu quruculuğu istiqamətində də mühüm addımlar atıldı. 1994-cü il mayın 12-də atəşkəs müqaviləsi imzalandıqdan sonra Azərbaycanda ordu quruculuğu daha da sürətləndi. Həyata keçirilən siyasət nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılmasına, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı. Ordu quruculuğu ilə bağlı genişmiqyaslı islahatlar həyata keçirildi. Qısa müddətdə hərbi hissələrin, ayrı-ayrı qoşun növlərinin formalaşdırılması tam başa çatdırıldı. Dövlətçiliyi və Hərbi andı hər şeydən uca tutan, hərbçi olmağı şərəf bilən zabitlər ordumuza cəlb olundular. Silahlı Qüvvələrin qanunvericilik bazası yaradıldı.

Ulu Öndər birmənalı şəkildə bildirirdi ki, ordu Azərbaycanın müstəqilliyinin atributudur. 1994-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin ildönümünə həsr olunmuş mərasimdə Ulu Öndər ordu barədə qeyd etmişdir: "Ordu olmalıdır, ona görə yox ki, biz hansısa bir dövlətə hücum etmək, kiminsə torpağını zəbt etmək istəyirik. Yox. Biz sülhsevər dövlətik. Biz heç kəsin torpağına göz dikməmişik. Biz öz torpaqlarımızı azad etmək, ölkəmizin ərazi bütövlüyünü, sərhədlərimizin toxunulmazlığını təmin etmək istəyirik. Azərbaycan xalqının ali məqsədi bundan ibarətdir. Azərbaycan dövlətinin apardığı siyasət, əməli fəaliyyət bundan ibarətdir. Bunun üçün və gələcəkdə dövlət müstəqilliyimizi qoruyub saxlamaq üçün güclü ordumuz olmalıdır. Biz ordu quruculuğu işi ilə məşğul oluruq... Azərbaycanın müstəqilliyini əbədi etmək üçün güclü və daim təkmilləşən, güclənən milli ordumuz olmalıdır. Bu, bizim müqəddəs vəzifəmizdir, hər bir kəsin şərəfli vəzifəsidir".

Ulu Öndər orduda kadrların düzgün seçilməsinə və ordunun təchizat baxımından daim təkmilləşməsinə diqqət yetirirdi. Hərbi hissələrə səfər edərkən əsgər və zabitlərin xidmət şəraiti, qayğıları ilə yaxından tanış olurdu. "N" hərbi hissəsində çıxışı zamanı çox dəyərli fikirlərini söyləmişdir: "Ordu xalqın bir hissəsidir. Xalqla ordunun birliyi həmişə dövlətin də qüdrətini təmin edir, orduya daha çox güc verir, xalqın da öz ordusuna daha çox etibar etməsinə əsas verir".

Silahlı Qüvvələrin döyüş hazırlığının yüksək səviyyəyə çatdırılması müasir hərbi texnika ilə yanaşı, bu texnikanı idarə edə biləcək savadlı zabit korpusundan da əhəmiyyətli dərəcədə asılıdır. Bu baxımdan Azərbaycanda beynəlxalq standartlara cavab verən hərbi təhsil sisteminin formalaşdırılması ordu quruculuğunda önəmli bir addım olmuşdur. Silahlı Qüvvələrin modernləşməsi proseslərində beynəlxalq təcrübəyə istinad edilməklə güclü, qüdrətli, məğlubedilməz Azərbaycan Ordusu formalaşdırılmışdır. Kursant və zabit heyətinin dünyanın ən qabaqcıl hərbi təhsil müəssisələrində hərb sənətinin sirlərinə yiyələnməsi ordumuzun peşəkarlıq səviyyəsinin yüksəlməsinə yol açmışdır.

Böyük tarixi şəxsiyyətin daxili və xarici siyasəti Azərbaycanın dövlət müstəqilliyini qorumağın, dövlətçiliyin möhkəmləndirilməsinin, ölkəmizin dünya miqyasında nüfuzlu dövlətlər sırasında olmasının, azərbaycançılıq ideologiyasının qarantı idi. Ulu Öndər azərbaycançılığı şərtləndirən amillərin hər birinin yaşadılmasına, inkişafına, təbliğinə xüsusi diqqət yetirirdi...

Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və əsası qoyulan ordu quruculuğu siyasəti nəticəsində bu gün Azərbaycan Ordusu qüdrətli və rəşadətli ordulardan birinə çevrilmişdir. Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunması və doğma Qarabağımıza qayıtmağımız ordumuzun misilsiz qəhrəmanlığından və güclü olmasından xəbər verir.

Heydər Əliyev irsi azərbaycançılıq ideologiyası kimi zaman-zaman öyrəniləcəkdir...

Azərbaycan xalqı xoşbəxt xalqdır ki, onun Heydər Əliyev kimi Ulu Öndəri, dünyanın hörmətlə yanaşdığı və qəbul etdiyi Lideri var. Və bu gün hər birimiz dərk edirik ki, müstəqil Azərbaycan dövləti bütün həyatı və fəaliyyəti tariximizə qızıl hərflərlə həkk olunmuş Heydər Əliyevin şah əsəridir. Şübhə yoxdur ki, xalqımız onun müəllifini özünün tarixində və qəlbində əbədi yaşadacaq, Azərbaycan və Heydər Əliyevin adı əsrlər boyu bütün dünyada qoşa səslənəcəkdir.

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

*Vətən Müharibəsi Qəhrəmanlarımız*

# Ölümsüzlüyü qazanan qəhrəmanlar

**(Əvvəli 1-ci səhifədə)**

O, 1988-ci il sentyabrın 14-də Cəlilabad rayonunun Prişib (indiki Göytəpə qəsəbəsində) anadan olub. 1995-ci ildə Göytəpə kənd tam orta məktəbinin birinci sinfinə daxil olan Rəşad 2003-cü ilə qədər bu məktəbdə təhsil alıb. Hərbiyə uşaqlıqdan marağı olan Rəşad 2003-2006-cı illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, daha sonra isə indiki Heydər Əliyev adına Hərbi İnstitutda təhsil alıb. Ali hərbi təhsil ocağını "Motoatıcı" ixtisası üzrə müvəffəqiyyətlə bitirdikdən sonra "N" hərbi hissəsində xidmətə başlayıb. Daha sonra Xüsusi Təyinatlı Qüvvələr kursunu uğurla keçərək xidmətini orduda xüsusi təyinatlı kimi davam etdirib.



2016-cı ilin Aprel döyüşlərində Rəşad Abdullayev "N" hərbi hissəsinin zabiti kimi iştirak edib. Düşmən təxribatlarının qarşısının alınması və strateji cəhətdən əlverişli mövqelərin azad olunması uğrunda gedən əməliyyatlarda xüsusi peşəkarlıq nümayiş etdirib. Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, xidməti vəzifələrini və hərbi hissənin qarşısında qoyulan tapşırıqları yerinə yetirərkən fərqləndiyinə görə Rəşad Abdullayev Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunub.

Hərbi qulluqçumuz müxtəlif illərdə xarici ölkələrdə keçirilən kurs və təlimlərdə iştirak edib.

Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatlarına cavab olaraq 2020-ci il 27 sentyabrda başlayan 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə yüksələn Rəşad Abdullayev ölümsüzlüyü qazanan qəhrəman oğullarımızdandır. Ölkəmizin suverenliyi, torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə yüksələn qəhrəmanlarımızı yad etmək isə bizim mənəvi borcumuzdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılaraq vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün, işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulan döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən Rəşad Abdullayev ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb, "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.

Bu günlərdə Vətən Müharibəsi Qəhrəmanı Rəşad Abdullayevin doğum günü münasibətilə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində anım tədbiri keçirildi.

Tədbirdə şəhid zabitin ailə üzvləri, döyüş yoldaşları, hərbi qulluqçular və ictimaiyyət nümayəndələri iştirak etdilər.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi və suverenliyi uğrunda canını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu, Dövlət Himni səsləndirildi.

Mərasimdə qəhrəman zabitin həyat və döyüş yolunu əks etdirən videoçarx nümayiş etdirildi.

Şəhidin ailə üzvləri çıxış edərək Rəşadla bağlı xatirələrini bölüşdülər.

Mərasimin bədii hissəsində şəhidin xatirəsinə həsr olunmuş şeirlər səsləndirildi, vətənpərvərliyi təbliğ edən musiqilər ifa olundu.

Tədbirdə, həmçinin yazıçı-jurnalist Ədalət Salmanın qəhrəman şəhidimizə həsr etdiyi "Murovun aslanı" kitabının təqdimatı da baş tutdu. Nəşrdə bir sıra vətənpərvərlik şeirləri yer alır, həmçinin Vətən Müharibəsi Qəhrəmanı Rəşad Abdullayevin döyüş yolundan, igidlik nümunələrindən və silahdaşlarının xatirələrindən bəhs olunur.

Tədbirin sonunda şəhidimiz haqqında məqaləni daha geniş hazırlamaq məqsədilə onun ailəsinin fikirlərini də qələmə almaq qərarına gəldim.

İlk həmsöhbətim şəhidimizin anası Sevil Abdullayeva oldu. "Rəşad uşaq vaxtından igid idi, heç vaxt kimsədən qorxmazdı. Mənim oğlumun qəlbi mərhəmət hissi ilə dolu idi. Şəhid olmaq onun taleyinə yazılmışdı. Onun şəhidliyi mənim üçün həm dərd, həm də fəxrdir. Çünki Rəşad




ailəmizin tək oğul övladı idi. O, babasından ilham alaraq hərbçi olmağı qərara almışdı. Hələ uşaq olanda babasının medallarını sinəsində daşıyar, şəkillər çəkdirərdi. Bir şüarı var idi - Vətəni hər zaman qoruyacam, qanım-canım bahasına olsa da, ona olan borcumu ödəyəcəyəm".

Şəhidimizin atası Arif Abdullayev isə dedi ki, Rəşad uşaqla uşaq, böyüklə böyük kimi idi. "Uşaqdan böyüyə də hər kəs onu çox sevərdi. Rəşadın şəhid olacağı ağlımıza belə gəlməzdi. Amma Rəşadın onun şəhid olması xəbərini eşidəndə çox sarsıldıq. Günü bu gün də inana bilmirik..."

Növbəti həmsöhbətim Rəşad Abdullayevin ömür-gün yoldaşı Gülnar xanım dedi ki, şəhidimiz ailəsini çox sevirdi. "Uşaqlarımız ilə zaman keçirir, onların sağlam və Vətənə bağlı övladlar kimi böyüməsinə diqqət edərdi. O, həm gözəl ata, həm də qayğıkeş insan, yaxşı dost və gözəl həyat yoldaşı idi. Vətənə bağlılığı o qədər möhkəm idi ki, bunu ailəsinə, övladlarına da aşılayırdı. O, oğlumuza hərbiyə maraq yaradan oyuncaqlar alardı. Beləcə övladımızda uşaq yaşlarından hərbiyə maraq yarandı. Hər dəfə deyirdi ki, atam kimi qəhrəman olacağam. Oğlumuz babasının adını daşıyır. Babası Məmmədağa Abdullayev 1941-1945-ci illərdə Böyük Vətən müharibəsində iştirak edib, yaralanıb. Onun adını yaşatmaq məqsədilə də Rəşad oğlumuza onun adını verib".



Rəşadın döyüşlərə yollanmasını xatırlayan Gülnar xanım qeyd etdi ki, o, övladlarımızı bağrına basıb vidalaşdı. "O an yaddaşımdan silinmir. Və qapıdan çıxarkən dedi ki, Gülnar, övladlarımı sənə əmanət edirəm. Onlara yaxşı bax. Onun xatirəsini yaşatmaq, övladlarımıza atalarının necə qəhrəman olduğunu anlatmaq ən böyük borcumdur".

"Rəşadın ən böyük arzusu ata-baba torpaqlarından didərgin düşmüş soydaşlarımızın öz yurdlarına qayıtması idi. Bu gün xoşbəxtəm ki, Rəşad və onun kimi oğullarımızın sayəsində xalqımızın illərlə həsrətində olduğu Azərbaycanın göz bəbəyi olan Qarabağ azaddır", - deyə Gülnar Abdullayeva bildirdi.



Dövlətimizin şəhid ailələrinə və onların yaxınlarına göstərdiyi diqqətdən danışan qəhrəmanımızın ailə üzvləri dedilər ki, bu gün torpaqlarımızın ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçən hər bir şəhidimizin ailə üzvləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın daima qayğısı altındadır. "Biz də bir şəhid ailəsi olaraq bu diqqət və qayğını daim öz üzərimizdə hiss edirik".

Qəhrəman şəhidimiz Rəşad Abdullayevdən bizə əmanət qalan 2 övladı var... Uşaqları Rüqəyyə və Məmmədağa ataları ilə qürur duyurlar. "Atamız həmişə bizə qorxmayın, mən buradayam deyərdi. Biz onu qəhrəman kimi xatırlayırıq və fəxr edirik. O, Vətənimizi işğaldan azad edənlərin sırasındadır, o, bizi görür, onun ruhu bizi qoruyur"...

Sonda "Murovun aslanı" kitabının müəllifi yazıçı, jurnalist Ədalət Salmanın fikirlərini də aldıq. "Rəşad Abdullayevin keçdiyi şərəfli döyüş yolu ilə tanış olduqdan sonra kitabı hazırlamağı qərara aldım. Rəşad barəsində poema yazanda çalışdım ki, onun timsalında Vətən müharibəsi tarixi ilə poetik bir dillə oxucuları tanış edim, oxucularda nəinki Rəşad, həm də bütün şəhidlərimiz barəsində fikir formalaşsın. Onlar vətənpərvərliyin nə demək olduğunu daha dərindən dərk edə bilsinlər.

Əks hücum əmri verdi,
Ali Baş Komandanım,
Şığıdı düşmən üstə,
neçə min qəhrəmanım.

Şəhidlərimizin göstərdikləri şücaətlər sayəsində onların şərəf yolu əbədi olaraq tariximizə həkk olundu. İndi onlar bir ailənin yox, bütöv bir xalqın övladları, Vətənin oğullarıdırlar. Onların sayəsində qazandığımız şanlı Zəfər neçə-neçə nəsillərə çatacaq, sədası min illərə söykənəcək. Hesab edirəm ki, Rəşad Abdullayev barəsində ərsəyə gətirdiyim bu kitab qısa müddətdə oxucu sevgisi qazanacaq, gələcək nəslə örnək ola biləcək", - deyə Ədalət Salman bildirdi.

Vətən uğrunda canını qurban verən, Vətənin harayına hay verən oğulların hər birinin keçmişində bir tarix, bir ömür, bir ailə, bir xatirə, bir də qürurla kədərin birləşdiyi hisslər dayanır. Vətənimizin suverenliyi, torpaqlarımızın ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərimiz heç bir zaman unudulmamalıdır. Çünki onlar Azərbaycan xalqının bütövlüyü uğrunda son damla qanınadək döyüşərək Zəfər tariximizi öz qanları ilə yazıblar.

**Şəlalə DÜNYAMALIYEVA**
**"Azərbaycan Ordusu"**

# Zəfərin ruhunda birləşənlər

## Azərbaycan və Türkiyədən olan şəhid ailələri və qazilərlə İğdırda görüş keçirilib



*Sentyabrın 15-də Naxçıvandan bir qrup şəhid ailəsi və müharibə iştirakçısı Vətən müharibəsinin 5 illiyinə həsr olunan, Azərbaycan və Türkiyə arasında ortaq milli-mədəni dəyərlərin təbliği, şəhid ailələri və ictimaiyyət nümayəndələri arasında dostluq və əməkdaşlığın möhkəmləndirilməsi məqsədilə keçirilən "Zəfər ruhunda birləşənlər" layihəsi çərçivəsində Türkiyə Respublikasının İğdır şəhərinə yola düşüb.*

Sentyabrın 16-da İğdır Mədəniyyət və Turizm İdarəsinin binasında tədbir baş tutub. Görüşün təşkilinə "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyi, İğdır-Azərbaycan Dil, Tarix və Mədəniyyət Həmrəyliyini Yaşatma və Dəstəkləmə Dərnəyi, İğdır Azərbaycan Evi, Türkiyə Müharibə Əlilləri, Qaziləri və Şəhidləri Cəmiyyəti dəstək verib.

Açılış mərasimində əvvəlcə şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Ardınca Azərbaycan və Türkiyə respublikalarının Dövlət Himnləri səsləndirilib.

İğdır-Azərbaycan Dil, Tarix və Mədəniyyət Birliyini Yaşatma Dərnəyinin sədri Ziya Zakir Akar, "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin sədri, şəhid Amin Gülməmmədovun atası Mayis Gülməmmədov, Türkiyə Müharibə Qaziləri, Şəhid Dulları və Yetimlər Dərnəyinin İğdır şöbəsinin sədri Orxan Severli, İğdır Şəhid Ailələrinə Yardım və Həmrəylik Dərnəyinin sədri Ahmet Akdeniz, "Naxçıvan Qaziləri" İctimai Birliyinin üzvü Pərviz Muradov, İğdır Vali Köməkçisi Abdurrahman Çelebi çıxış ediblər.

Türkiyə Respublikasının Qars şəhərində Azərbaycan Respublikasının Baş Konsulu Zamin Əliyev, Naxçıvan Muxtar Respublikasında Türkiyə Respublikasının Baş Konsulu Asip Kaya çıxışlarında Türkiyə və Azərbaycan xalqlarının müstəqillik və ərazi bütövlüyü uğrunda mübarizəsindən, iki qardaş ölkə arasındakı dostluq və dəstək münasibətlərindən bəhs ediblər.





Çıxışların sonunda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Üzeyir Məmmədov tədbirlərin əhəmiyyətini vurğulayaraq qeyd edib ki, hər iki ölkə arasında bütün sahələrdə əlaqələrin inkişaf etməsi qürurvericidir. Şəhid ailələri və qazilərin qarşılıqlı əlaqədə olması, milli-mənəvi dəyərlərin təbliği baxımından xüsusi önəm daşıyır. Deputat gələcəkdə də bu cür tədbirlərin keçiriləcəyinə ümidvar olduğunu bildirib və təşkilatçılara təşəkkürünü ifadə edib.

Tədbir zamanı 44 günlük Vətən müharibəsində şəhid olan İbrahim Vəlizadənin atası Səməd Vəlizadə "Şərq qapısı" qəzetinin kollektivi tərəfindən hazırlanmış "100 ilin qəhrəmanları" adlı kitabı İğdır Valisinin müavini Abdurrahman Çelebiyə hədiyyə edib.

Tədbir çərçivəsində Azərbaycan və Türkiyədən olan şəhid ailələrinin üzvləri, eləcə də qazilər İğdırın simvollarından biri olan muzeyi və 1915-2015-ci illərdə Şərqi Anadoluda erməni silahlı dəstələrinin cinayətlərinin qurbanı olmuş dinc sakinlərin xatirəsinə ucaldılmış beş qılınc formasındakı abidəni ziyarət ediblər.

Daha sonra tədbir iştirakçıları "Bir millət - iki dövlət" devizi altında şəhidlərin əziz xatirəsinə həsr olunmuş ağacəkmə aksiyasında iştirak ediblər.

Sonda xatirə fotosu çəkdirilib.

Səfərlə bağlı təəssüratlarını bölüşən "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin həmtəsisçisi, Ali Məclisin deputatı Üzeyir Məmmədov bildirib ki, layihə Türk dünyasında birgə fəaliyyətin təşviqi, humanitar və sosial dəstək mexanizmlərinin inkişafına xidmət edir. Ü.Məmmədov qeyd edib ki, belə tədbirlər Türk dünyası xalqları arasında ortaq dəyərlərin və birliyin təbliği baxımından xüsusi əhəmiyyət daşıyır.

**Bəxtiyar ƏLİYEV**
**Naxçıvan Şəhid Ailələri İctimai Birliyinin mətbuat katibi**

# Sülhü sevirik, Zəfərimizi qoruyuruq

**(Əvvəli 1-ci səhifədə)**

Beynəlxalq Sülh Günü 1981-ci ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən təsis edilib. Onun təsis edilməsində əsas məqsəd dövlətləri, xalqları və bütün bəşəriyyəti silahlı münaqişələrdən imtina etməyə, diplomatiya və dialoqun gücünü ön plana çəkməyə yönəltmək idi. Hər bir insan sülhün təmin olunmasında və davamlılığında üzərinə düşən məsuliyyəti qorumağa çalışmalıdır.

Beynəlxalq Sülh Günü BMT-nin Nyu-York şəhərindəki baş qərargahında yerləşən "Sülh Zəngi"nin çalınması ilə başlayıb. 2007-ci ildə BMT-nin baş katibi Pan Gi Mun həmin "Sülh Zəngi"ni çalaraq bütün dünyanı döyüş əməliyyatlarını, ədavəti, qarşıdurmanı 24 saat müddətində dayandırmağa və bir dəqiqəlik sükuta səsləyib. O vaxtdan 21 sentyabr - Beynəlxalq Sülh Günü kimi qeyd edilir.

Müstəqil dövlətimiz bu hüququn aliliyini, regional əməkdaşlığı və davamlı sülhün vacibliyini dəstəkləyib. Beynəlxalq təşkilatlar Azərbaycanı sülhsevər ölkə kimi tanıyıb. Lakin Azərbaycanın suverenliyi və torpaqlarımızın ərazi bütövlüyü beynəlxalq hüququn tələblərinə zidd olaraq işğala məruz qalıb. Torpaqlarımızın işğaldan qeyd-şərtsiz azad olunması ilə bağlı BMT Təhlükəsizlik Şurasında qəbul olunmuş 4 qətnamə icra olunmadı. Azərbaycan ilə Ermənistan arasında mövcud olmuş münaqişənin sülh yolu ilə həll edilməsi üçün yaradılmış ATƏT-in Minsk qrupu işğalçı Ermənistana heç bir təzyiq göstərmədi, əksinə Azərbaycan xalqını işğalla barışdırmağa çalışdılar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dəfələrlə qeyd edib ki, Azərbaycanın əsas məqsədi regionda sabitliyin bərqərar olunması və xalqlar arasında normal münasibətlərin qurulmasıdır.



Dövlətimizin başçısının qətiyyətli və prinsipial mövqeyi, xalqımızın öz Prezidentinin ətrafında sıx birləşməsi, Azərbaycan Ordusunun şücaəti sayəsində 2020-ci ildə 44 gündə torpaqlarımız işğaldan azad olundu.

Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin iştirakı ilə üçtərəfli Bəyanat imzalandı. Bu bəyanat regionda sülhün bərqərar olunması üçün fundamental əsaslar yaratdı.

2025-ci il avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vaşinqtona səfəri zamanı mühüm tarixi hadisə baş verdi. Yüksək səviyyədə keçirilən üçtərəfli görüş dünya ictimaiyyətinin diqqət mərkəzində dayandı. Görüşün əsas məqsədi Cənubi Qafqazda dayanıqlı sülhün təmin edilməsi, regionun sabitliyinin və inkişafının davamlılığına zəmin yaratmaq idi. Azərbaycan və Ermənistan arasında 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatdan sonra yaranmış yeni reallıqlar fonunda sülh sazişinin imzalanması üçün son mərhələlərin razılaşdırılması bu müharibəyə həm siyasi mərhələ, həm də dünyəvi münasibət oldu. ABŞ-ın vasitəçilik missiyası bu prosesə beynəlxalq legitimlik qazandırmaqla yanaşı, tərəflərin qarşılıqlı etimadının formalaşdırılmasında əhəmiyyətli stimul idi.

Görüş çərçivəsində tərəflər arasında siyasi dialoqun intensivləşdirilməsi, humanitar məsələlərin (əsir və girovların dəyişdirilməsi və s.) sürətləndirilməsi və nəqliyyat-kommunikasiya xətlərinin bərpası da əsas müzakirə mövzularından oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu platformada ölkəmizin mövqeyini qətiyyətlə ifadə edərək, regionda uzunmüddətli və dayanıqlı sülhün, sabitliyin yalnız beynəlxalq hüquq və ərazi bütövlüyü prinsipləri əsasında təmin oluna biləcəyini vurğuladı.

ABŞ-da üçtərəfli Bəyannamə imzalandı. Bəyannamədə qeyd olunur ki, "biz və ABŞ-ın Prezidenti Donald Tramp "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in razılaşdırılmış mətninin tərəflərin xarici işlər nazirləri tərəfindən paraflanmasına şahidlik etdik. Bu kontekstdə biz Sazişin imzalanması və yekun olaraq ratifikasiyası üçün əlavə tədbirlərin görülməsinin davam etdirilməsinə ehtiyac olduğunu qəbul etdik və ölkələrimiz arasında sülhün təmin edilməsi və gücləndirilməsinin vacibliyini vurğuladıq".

Vaşinqtonda imzalanmış Bəyannamə Azərbaycanın gələcəyi üçün əhəmiyyətli dönüş nöqtəsi hesab olunur. Bu sənəd Azərbaycanın siyasi, iqtisadi və hərbi üstünlüyünün rəsmiləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır, bütövlükdə isə Cənubi Qafqaz regionu üçün yeni mərhələnin başlanğıcıdır. Bəyannamə təsdiqlədi ki, Azərbaycan sülhsevər ölkədir və sülh gündəliyinə sadiqdir. Bu Bəyannamə Azərbaycanın beynəlxalq arenada nüfuzunun artdığını və qlobal güclərin sülh təşəbbüsündə ölkəmizin rolunu yüksək qiymətləndirdiyini göstərir.

Güclü dövlət və qüdrətli ordu müstəqil siyasət üzərində qurulduqda davamlı ola bilər. Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində qazandığı tarixi Zəfər sülhün əsas təminatçısına çevrildi. Bu gün BMT-nin təsis etdiyi Beynəlxalq Sülh Gününü qeyd edən Azərbaycan xalqı qürurla deyə bilər ki, sülhün yolu yalnız ədalətin bərpasından keçir.

21 sentyabr - Beynəlxalq Sülh Günü insanlara sülhü qorumağı, onun dəyərini bilməyi xatırladır. Azərbaycan öz tarixi təcrübəsi ilə göstərir ki, ədalətli mövqedən çıxış edən, güclü dövlətə, Müzəffər Ali Baş Komandan və qüdrətli orduya malik olan xalq həqiqi sülhün qurucusuna çevrilə bilər.

Sülh - gələcəyə, inkişafa və xoşbəxtliyə nail olmaqda həm bir vasitə, həm də bəşəriyyəti bütün bəlalardan xilas edən amillərdəndir. Sülhü yaradaq, qoruyaq, möhkəmləndirək, dəyərini bilək və onu əbədi edək. Sülh bəşəriyyətin ən böyük Zəfəridir. Sülhümüzü sevək, Zəfərimizi qoruyaq!

**Kifayət ƏLİYEVA**
**"Azərbaycan Ordusu"**

# Şəhid zabit Elcan Balabəylinin xatirəsi yad edilib







Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını fəda etmiş vətənpərvər övladlarımızın xatirəsinin yad edilməsi məqsədilə ölkəmizin bütün bölgələrində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da silsilə tədbirlər keçirilir.

Silsilə tədbirlər çərçivəsində 2023-cü ilin antiterror əməliyyatında şəhidlik zirvəsinə ucalan şəhid kapitan Balabəyli Elcan Vasif oğlunun xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib.

Naxçıvan şəhərində keçirilən tədbirdə əvvəlcə ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Şəhər İcra Hakimiyyəti aparatının Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri İsmayıl Gülməmmədov çıxış edərək İkinci Qarabağ müharibəsi və ondan sonrakı döyüş əməliyyatlarında, o cümlədən antiterror əməliyyatında qəhrəmanlıq nümunəsi göstərmiş oğullarımızdan biri olan kapitan Elcan Balabəylinin xatirəsinə həsr edilmiş tədbirin mahiyyətindən danışıb.

Şəhid ailələrinin nümayəndələri və digər qonaqlar qəhrəmanımızla bağlı xatirələrini bölüşüb, Vətənə belə igid, mərd, vətənpərvər övlad yetişdirən və bu yaxınlarda haqqın dərgahına qovuşmuş şəhidin atası Vasif bəyi dərin ehtiramla yad edib, şəhidin anası Səkinə xanıma və qardaşına başsağlığı veriblər.

Elcan Balabəylinin orta təhsil aldığı 15 nömrəli tam orta məktəbin şagirdləri şəhidimizə həsr edilmiş şeirləri bədii qiraət ediblər.

Sonda şəhidin qardaşı Elçin Balabəyli göstərilən diqqət və qayğıya görə minnətdarlıq edib.

Şəhidimizin məzarına gül dəstələri düzülüb, ehsan süfrəsi açılıb.

Qeyd edək ki, ali hərbi məktəbi "Hava Hücumundan Müdafiə" ixtisası üzrə başa vuraraq "leytenant" hərbi rütbəsi alan Elcan 2014-2015-ci illərdə indiki Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində təkmilləşdirmə kursu keçib. 2015-ci ildən Azərbaycan Ordusu sıralarında zabit kimi xidmətə başlayıb. 2017-ci ildə "baş leytenant", 2021-ci ildə isə "kapitan" hərbi rütbəsinə yüksəlib. Döyüş və ictimai-siyasi hazırlığın yüksəldilməsində, hərbi intizamın möhkəmləndirilməsində əldə etdiyi nailiyyətlərə görə dəfələrlə yuxarı komandanlıq tərəfindən fəxri fərmanlarla təltif olunub.

Elcan sağlığında "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı və "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı ilə təltif edilib.

27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsinin iştirakçısı olan Elcan sentyabrın 30-da Füzuli rayonu istiqamətində düşmən artilleriyasının atəşi nəticəsində qəlpə yarası alıb. Müalicəsi tamamlanmamış, həkimlərin təkidinə baxmayaraq, öz istəyi ilə yenidən döyüşlərə qayıdıb, Füzulidən Şuşaya qədər şərəfli döyüş yolu keçib. Azərbaycan Respublikasının Prezidentinin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə", "Vətən uğrunda" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub. Elcan, həmçinin Aprel döyüşləri və Qisas əməliyyatında da fəal iştirak edib.

Qəhrəmanımızın son döyüşü 2023-cü ilin 19-20 sentyabr tarixlərində Qarabağ iqtisadi rayonunda həyata keçirilən antiterror əməliyyatı olub. Elcan Ağdərə istiqamətində gedən döyüşlərdə düşmənin snayper atəşi nəticəsində şəhidlik zirvəsinə ucalıb.

Qəhrəman şəhidimiz doğulduğu Naxçıvan şəhərində torpağa tapşırılıb.

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 7 noyabr tarixli sərəncamları ilə kapitan Balabəyli Elcan Vasif oğlu ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "İgidliyə görə" medalı ilə təltif olunub.

**Bəxtiyar ƏLİYEV**
**"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin mətbuat katibi**

# Dövlət Suverenliyi Günü münasibətilə Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib




20 Sentyabr - Dövlət Suverenliyi Günü münasibəti ilə Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Vətən uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirlərdə müdafiə naziri general-polkovnik Zakir Həsənovun Azərbaycan Ordusunun şəxsi heyətinə təbriki iştirakçıların diqqətinə çatdırılıb.

Çıxışlarda 2024-cü il sentyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı Sərəncamla hər il sentyabrın 20-nin Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd edildiyi vurğulanıb.

Qürur hissi ilə bildirilib ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycanın xoşbəxt gələcəyi ilə bağlı ideyaları onun siyasi irsinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir.



Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda 2020-ci ildə həyata keçirilmiş 44 günlük Vətən müharibəsi və sonrakı əməliyyatların Cənubi Qafqazda dayanıqlı sülhə, əmin-amanlığa və təhlükəsizliyə misilsiz töhfə verən tarixi missiya olduğu diqqətə çatdırılıb.

Dövlət Suverenliyi Gününün Azərbaycan xalqının əsrlərlə müstəqillik uğrunda mübarizəsinin rəmzi, dövlətin konstitusiya quruluşunun bütün ərazilərimizdə tam bərpa olunması, milli həmrəyliyin güclənməsi və müstəqil dövlətçilik yolunun təntənəsi olduğu izah edilib.

Tədbirlər çərçivəsində Azərbaycan Ordusunun şəxsi heyəti şəhidlərimizin məzarlarını ziyarət edib, gül dəstələri düzərək xatirələrini hörmət və ehtiramla anıblar.

# "Dövlət suverenliyinin tam bərpa edilməsi Azərbaycan dövlətinin və xalqının ikiqat uğuru oldu"

*2023-cü ilin sentyabrın 19-20-ni əhatə edən dövlət suverenliyinin tam bərpası ilə nəticələnən əməliyyat xalqımızın və dövlətimizin 8 Noyabr Zəfərindən sonra əldə etdiyi ən böyük uğurdur.*

Bunu AZƏRTAC-a açıqlamasında Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri polkovnik Cəlil Xəlilov bildirib.

O deyib ki, bu əməliyyat ölkəmizin suverenliyini bərpa etməklə yanaşı, bölgədəki separatizmə də son qoyub. "2023-cü ilin dövlət suverenliyinin tam bərpası əməliyyatı həm hərbi, həm də siyasi nəticələrinə görə olduqca unikal və təkrarsızdır. Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən bu əməliyyat nəticəsində respublikamızın suverenliyi tam bərpa olundu. Bölgədə uzun müddət mövcud olmuş separatizmə son qoyuldu. Bu, Azərbaycan dövlətinin və xalqının ikiqat uğuru, nailiyyəti oldu. Bu gün suverenliyimizin tam bərpasından iki il ötür. Hazırda respublikamızın hər bir guşəsində Azərbaycanın üçrəngli Bayrağı dalğalanır. Vaxtı ilə xalqımıza qarşı ağır cinayətlər törətmiş erməni separatçıları bu gün Bakı Hərbi Məhkəməsində qanlı əməllərinə görə cavab verməkdədirlər. Onlar xalqımıza qarşı törətdikləri cinayətləri bütün dünyanın gözləri qarşısında etiraf edirlər. Bütün bunlar dövlətimizin gücünün, Prezidentimizin qətiyyətinin isbatıdır. Unutmamalıyıq ki, gələcək uğurlarımızın açarı birliyimiz və həmrəyliyimizdir", - deyə C.Xəlilov vurğulayıb.

# Psixologiyada özünütəlqin: İnsanın daxili gücünün kəşfi

Müasir psixologiyada insanın daxili potensialının kəşfi və onun tətbiqi geniş tədqiqat sahələrindən birinə çevrilmişdir. Bu kontekstdə özünütəlqin - insanın öz psixoloji vəziyyətinə, düşüncələrinə və davranışlarına təsir göstərmək, hakim olmaq qabiliyyəti xüsusi yer tutur. Həyatın müxtəlif mərhələlərində insanın qarşılaşdığı çətinlikləri aşmaqda, uğur qazanmaqda və məqsədlərinə çatmaqda özünütəlqinin əvəzsiz rolu vardır.

**1. Özünütəlqin nədir?**

Özünütəlqin - insanın öz-özünə şüurlu və ya şüursuz təsirlərlə verdiyi daxili inamı formalaşdırması və psixoloji vəziyyətinə təsir göstərməsidir. Bu proses şüurun bir növ yönləndirilməsi, motivasiyanın stimullaşdırılması və mənfi düşüncə modellərinin müsbətə doğru dəyişdirilməsi vasitəsilə həyata keçirilir.

Məşhur bir ifadədə deyildiyi kimi: "Hər gün hər baxımdan daha da yaxşılaşıram".

Bu cümlə bir çoxlarının gündəlik devizinə çevrilmiş və özünütəlqinin sadə, lakin güclü bir vasitə olduğunu göstərmişdir.

**2. İnsan - maddi varlıqdan daha artıq**

İnsanı yalnız maddi varlıq kimi qəbul etmək əslində onun təbiətinin böyük bir hissəsini, hətta ən güclü tərəfini görməmək deməkdir. İnsan yalnız bədənindən ibarət deyil, o, ruhi və mənəvi dünyası ilə də fərqlənir. İnsan həm də emosional, zehni və mənəvi yönlərə malik, ruhsal, duyğularla zəngin bir varlıqdır. Böyük anlamda şəxsin düşüncələri, duyğuları və mənəvi durumu insanın həyat keyfiyyətini və uğurlarını müəyyən edən əsas amillərdəndir. İnsan psixikasını sadəcə kimyəvi reaksiyalar və fizioloji proseslər kimi görmək, onun həyatdakı müvəffəqiyyətini və xoşbəxtliyini tam dərk etməmək deməkdir.

Burada Hind fəlsəfəsinə aid məşhur bir fikir çox yerinə düşür: "Biz ruhi təcrübə bəxş edilmiş insan məxluqları deyilik. Biz insani təcrübə bəxş edilmiş ruhi məxluqlarıq".

Bu fikir göstərir ki, insanın əsas varlığı onun ruhi təcrübələrində, duyğularında, düşüncələrində və dəyərlərindədir. İnsanın daxili dünyası zənginləşdikcə həyatın mənasını və məqsədini dərk etməsi asanlaşır.

**3. Özünütəlqinin psixoloji əsası**

Özünütəlqinin psixoloji mexanizmləri əsasən təkrar, vizualizasiya və inanma kimi proseslərə əsaslanır.

- Təkrar: Məlumatın beyinə bir neçə dəfə ötürülməsi, onun yaddaşda möhkəmlənməsini təmin edir.
- Vizualizasiya: İnsan özünü uğur qazanmış, istədiyi vəziyyətdə təsəvvür etdikcə, beynin həmin vəziyyətə uyğun reaksiyaları aktivləşir.
- İnanma: İnanmaq özünütəlqinin effektivliyini artırır. İnam bütün məqamlarda baş verən proseslərin istiqamətinə və nəticələrinə həlledici təsir edən amildir. İnanmayan insan üçün təlqin gücsüzdür.

İnsan beyni ona (təkrar) təqdim edilən məlumatları bir müddət sonra "gerçək" olaraq qəbul etməyə başlayır. **Beləliklə:**

- Müsbət təlqinlər: Özünəinamı artırır, qorxu və şübhələri azaldır.
- Mənfi təlqinlər: Təşviş, özünüqiymətləndirmənin aşağı olması və passivlik yaradır.

Burada "Placebo effekti" də özünütəlqinin bir sübutu olaraq göstərilə bilər. İnsan ona verilən dərmanın əslində təsirsiz olduğunu bilməsə də, yalnız inanmaq sayəsində sağalmanı təcrübə edə bilir. Bu, beynin düşüncələrə, düşüncələrin bədənə necə təsir etdiyini aydın şəkildə göstərir.

Aşağıda "Placebo effekti" tətbiq edilən müsbət və mənfi özünütəlqin nümunələrinə aid misallar göstərilmişdir. Birinci misalda iştirakçılar düşüncələrində özünütəlqin formalaşdırmaqla müsbət özünütəlqin sayəsində sağalır, ikinci misalda isə mənfi özünütəlqin sayəsində iştirakçının vəziyyəti daha da pisləşərək ölməsinə səbəb olur.

**Placebo effekti - hadisə 1 (müsbət özünütəlqin nümunəsi):**

1980-ci illərdə ABŞ-da belə bir hadisə baş vermişdir. O illərdə ABŞ-da şəkərli diabet xəstəliyindən əziyyət çəkən azyaşlı uşaqların müalicə aldıqları 2 dispanser var idi. Uzun illərin statistik araşdırmalarından sonra dispanserlərin birində müalicə alan xəstələrin 90%-nin tam sağaldığı, digər dispanserdəki xəstələrin isə 80-90%-nin sağalmadığı, əksinə xəstəliklərinin daha da şiddətləndiyi diqqət çəkmişdir. Statistik araşdırma mərkəzinin bu məlumatından sonra ABŞ-nin Səhiyyə Nazirliyinin həyəcan təbili ilə ayağa qalxması, hökumət dairələrinin bununla bağlı ABŞ Səhiyyə Nazirliyinə təzyiqləri ölkə gündəmində olmuşdur. ABŞ Səhiyyə Nazirliyinin araşdırmaları heç bir nəticə verməmiş və bununla bağlı hökumət qarşısında heç bir qənaətbəxş hesabat verə bilməmişdir. Çarəsiz qalan ABŞ hökuməti və Səhiyyə Nazirliyi bütün media vasitələrindən istifadə edərək ölkə qarşısında çıxış etmiş, üzləşdikləri problemi açıqlamış və bütün elm xadimlərini bu problemlə bağlı səfərbərliyə çağırmış və problemin düzgün səbəbini və həllini tapan şəxsin böyük məbləğdə mükafat qazana biləcəyini bildirmişdir.

Bir çox elm xadimləri bu problemlə bağlı araşdırmalar aparmış, lakin, heç bir nəticə əldə edə bilməmişdilər. Belə ki, xəstələrinin 80-90%-nin sağala bilməyib, əksinə xəstəliklərinin daha da ağırlaşdığı dispanserdə nəzərə çarpan və buna səbəb ola biləcək heç bir nöqsan tapa bilməmişdilər.

Nəhayət ki, məşhur amerikalı psixoloq Antony Robbins bu məlum problemin həllini tapmışdır. Bunun üçün o, təxminən bir aya qədər xəstə uşaqların sağala bilmədikləri dispanserdə araşdırmalar aparmış və qənaətbəxş heç bir nəticə əldə etmədikdən sonra problemin həllini məhz digər müalicə ocağında axtarmalı olduğunu anlamışdır. Digər dispanserə gələrək araşdırmalarına başlayan Antony Robbins burada 5 yaşlı xəstə qız olan Mary ilə dostluq etməyə və gününün çox hissəsini o uşaqla keçirməyə başlayır. Onlar bir yerdə oynayır, bir yerdə yemək yeyir, Mary-nin maraqlarında ola biləcək söhbətlər edir, bir yerdə cizgi filminə baxırlar. Bərabər keçirdikləri müddətdə məşhur psixoloq uşağın dünyasına nüfuz etməyə və onu anlamağa çalışırdı, lakin hələ heç bir irəliləyiş əldə edə bilməmişdi. Nəhayət bir gün Mary yeni dostuna bu gün hovuzda çiməcəyini bildirir. Onlar səhər təxminən 10:00 radələrində dispanserin hovuz olan bölümünə gedirlər. Mary hovuza cavabdeh olan xidmətçidən hovuzun təmiz olub-olmadığını soruşur. Xidmətçi "Xeyr, Mary, hovuz təmiz deyil. Səndən əvvəl bu hovuzda bir nəfər çimib. Mən hovuzu hazırlayaram, isti olanda səni çağıraram, gəlib çimərsən" deyir. Göz yaşı kimi təmiz suyu olan hovuza yenidən baxaraq bərk təəccüblənən məşhur psixoloq heç nə demir.

Təəccüblü idi, ona görə ki, xidmətçi bir nəfərin çimməsi ilə ən azı 15-20 ton su tutumu olan hovuzu natəmiz sayırdı və onların hər ikisinin gözünün qabağında boşaltma kranını açaraq hovuzu boşaltmağa başlayır. Suyun burula-burula kanalizasiya dəliyinə getdiyini görən Mary Antony Robbinsə "Gedək, bizi çağıranda gələrik" deyir və onlar hovuz olan bölümdən çıxırlar.

Təxminən 2 saat sonra xidmətçi onlara yaxınlaşır və mehriban şəkildə "Mary, hovuz hazırdır, indi girib çimə bilərsən" deyir.

Onlar yenidən hovuza gəlirlər və Mary hovuzun kənarında oturaraq ayaqlarını suya sallayır. Ayaqları ilə suyun hərarətini yoxladıqdan sonra sevincək halda "Hə, indi çimmək olar" deyə hovuza tullanır. Sevincək halda hovuzun uzunluğu boyu o tərəfə-bu tərəfə üzən uşağa baxan psixoloqun diqqətini qızın dodaqlarının yüngülcə tərpəndiyi, öz-özünə nə isə pıçıldadığı çəkir. Mary üzüb qurtardıqdan sonra hovuzdan çıxır və onlar oradan gedirlər.

Şam yeməyi vaxtı Antony Robbins Mary-dən hovuzda üzərkən öz-özünə nə pıçıldadığını soruşur. Mary "Bu bizim hovuz xidmətçisi ilə aramızda olan bir sirrdir" deyə gülümsəyərək cavab verir. Psixoloq öyrənmək üçün təkid göstərmir. Bundan bir neçə gün keçdikdən sonra Mary-dən söhbətarası bunun nə olduğunu soruşur. Mary ona "Mən qəndəm" deyə cavab verir. Çaşqınlıqdan "Nə?" deyə soruşan psixoloq uşaqdan eyni cavabı alır. Antony Robbins məsələnin sirrini başa düşür və hər şeyi anlayır. Sən demə hovuz xidmətçisi uşaqların qarşısında kiçik bir təcrübə keçirərək onlara ən gözəl şəkildə özünütəlqin aşılayıbmış. Bunun üçün xidmətçi bir ədəd soyuq su və bir ədəd isti su ilə dolu stəkan götürmüş, hərəsinə bir ədəd qənd atmış, qısa vaxtdan sonra nəticəni uşaqlara göstərmişdir. Belə ki, soyuq su ilə dolu stəkana atılan qəndin hamısı ərimişdi. İkinci dəfə xidmətçi 1 ədəd isti şirin suyu olan stəkan, 1 ədəd də isti adi suyu olan stəkan götürmüş, hərəsinə 1 ədəd qənd atmışdı. Müəyyən vaxtdan sonra şirin suyu olan stəkandakı qəndin az hissəsinin, adi suyu olan stəkandakı qəndin isə hamısının əridiyini uşaqlara göstərmişdi. Daha sonra bu təcrübəyə yekun vuraraq xəstə uşaqlara bunu açıqlamışdır: "Uşaqlar, nə vaxt ki, siz təmiz, isti suda çimsəniz sizin bədəninizdə olan şəkər sizdən çıxıb suya qarışar. Şirin suda çimsəniz, şəkər çıxmaz, əksinə daha çox sizə yapışar. Ona görə də siz yalnız isti və təmiz suda çimməlisiniz". Bu sadə uşaq dili ilə ən sadə şəkildə özünütəlqin aşılanan uşaqlarda müalicə daha effektli və sürətlə getmiş və böyük əksəriyyəti sağalmışdı.

Bu problemin həllini açıqlayaraq ABŞ hökumətinə bildirən məşhur psixoloq müəyyən edilmiş mükafata sahib olur.

Burada biz xidmətçinin uşaqların şüurunda müsbət özünütəlqin yaradaraq "Mən qəndəm və təmiz isti suda həll oluram" deyə düşünmələri, bütün duyğularının uşaqları sağalmağa kökləməsi və nəticədə də müalicə alan uşaqların böyük əksəriyyətinin sağaldıqlarını görürük.

**"Placebo effekti - hadisə 2 (mənfi özünütəlqin nümunəsi):**

Bir vaxt ölkələrarası ərzaq məhsullarının daşınması ilə məşğul olan şirkətin treylerlərindən birinə ət məhsullarını yükləyərkən işçilərdən biri maşının bortunda yeşikləri daşıyırdı. Ət məhsulları yüklənib qurtardıqdan sonra bortun içərisində öz işi ilə məşğul olan işçini yaddan çıxaran digər işçilər bortun qapısını bağlayır, sürücüyə də "Biz bortu bağladıq, indi sürüb gedə bilərsən" deyirlər. Sürücü də buna arxayın olub maşını işə salır və hərəkətə başlayır. Maşın işə düşdükdən sonra bortun qapısına tərəf qaçan işçi qapının bağlı olduğunu görür. Qapını və divarları nə qədər döyüb-yumruqlasa da, heç kim eşitmir. Çarəsiz qalan işçi "İndi dondurucu işləyəcək, mən də burada donub öləcəm. Heç olmasa başıma gələnləri yazım, daha sonra nədən öldüyümü bilsinlər" deyə düşünür. Daha sonra cibindən qələmini və bloknotunu çıxarıb yazır: " - Saat 10:00. Maşın işə düşdü;
- Saat 11:00 çox soyuqdu, yaman üşüyürəm, deyəsən yavaş-yavaş donuram;
- Saat 11:30, soyuqdan tir-tir əsirəm;
- Saat 12:00 iliklərimə qədər donmuşam;
- Saat 12:40 artıq yaza da bilmirəm, deyəsən axırım çatıb".

Maşın mənzil başına çatanda dondurucunun qapısını açan kimi xarab olmuş ət qoxusu ətrafı bürüyür. Dondurucunun içinə baxanlar orada donvurmadan qaxac olmuş işçinin cəsədini tapırlar. Ölmüş işçinin qeydlərində onun donduğunu və bu səbəbdən öldüyünü oxuyan insanlar çox təəccüblənirlər. Çünki dondurucu hələ yola düşməmişdən əvvəl nasaz olduğu üçün heç işləməmiş, buna görə də bütün ət məhsulları xarab olmuşdu. Daha sonra işçinin cəsədini müayinə edən ekspert pataloqoanatomlar onun, həqiqətən də, donmadan öldüyünü təsdiq etmişdilər.

Burada biz işçinin şüurunda mənfi özünütəlqin yaradaraq "Mən donuram" deyə düşünməsi, bütün duyğularının onu donmaya kökləməsi və nəticədə həqiqətən donaraq öldüyünü görürük.

Yuxarıda izah etdiyimiz hadisələrdə biz özünütəlqinin müsbət və mənfi nəticələrə yol açan iki nümunəsini görürük. Psixoloji cəhətdən, həqiqətən də, möhtəşəm gücə malik olan özünütəlqini biz öz xidmətimizdə necə tətbiq etməliyik? Bu sual bütün hərbi psixoloqları, komandir-rəisləri düşündürməlidir. Çünki bütün peşələrin ən şərəflisi və çətini olan hərbçi peşəsi insanların öz vəzifə borcunu şüurlu surətdə qəbul edərək, nizamnamələr çərçivəsində yüksək məsuliyyətlə icra etmələrinə əsaslanır.

**4. Özünütəlqin həyatda necə kömək edir?**

Özünütəlqinin gündəlik həyatda tətbiqi aşağıdakı sahələrdə faydalı ola bilər:

- Stress və təşvişin idarə olunması:

✓ "Mən sakitəm", "Hər şeyə nəzarət edirəm" kimi ifadələr insanın narahatlıq səviyyəsini azaldır.

✓ Dərin nəfəsalma və özünütəlqin birləşdirildikdə daha effektiv olur.

- Özünəinamın artırılması:

✓ Müsbət ifadələr ("Mən bacarıqlıyam", "Qorxularımı aşa bilərəm") insanın özünə olan münasibətini dəyişə bilər.

- Uğura yönəlmiş motivasiya:

✓ İdmançılar, tələbələr, menecerlər və digər peşə sahibləri özlərini "Məqsədimə doğru gedirəm", "Uğur məni gözləyir" kimi cümlələrlə təlqin edərək performanslarının artırılmasına nail ola bilərlər.

- Pis vərdişlərin tərgidilməsi:

✓ Siqareti tərgitmək, sağlam həyat tərzi keçirmək, vaxtı düzgün idarə etmək kimi davranış dəyişiklikləri özünütəlqin vasitəsilə dəstəklənə bilər.

**5. Uğurun və uğursuzluğun gizli açarı:**

Bir çox hallarda insanların uğur qazanmaları, yaxud uğursuzluqlarla üzləşmələri onların daxili inam sistemi ilə bağlıdır. Özünə daim "Mən bacarmıram", "Alınmayacaq" kimi mesajlar göndərən bir insanın həyatda uğur qazanması çətin olur. Əksinə, özünü müsbət şəkildə ruhlandıran, qarşıya məqsəd qoyan və bu istiqamətdə özünə güvənən insan istədiyi nəticəyə daha çox yaxınlaşır.

Psixoloqlar sübut ediblər ki, inanılan fikir, təkrarlanan fikrə çevrilir, təkrarlanan fikir isə gerçəklikdə öz əksini tapmağa başlayır.

**Nəticə:**

Özünütəlqin sadəcə boş bir inam və ya xəyali motivasiya metodu deyil. Bu, insanın daxili dünyasını formalaşdıran, həyatına istiqamət verən və uğur yollarını açmağa imkan yaradan qüdrətli psixoloji alətdir.

Özünütəlqin sayəsində insan:

- öz emosiyalarını daha yaxşı anlayır və idarə edir;
- həyat məqsədlərini dəqiqləşdirir və onlara yaxınlaşır;
- daxili maneələri aşaraq daha balanslaşdırılmış və məqsədli bir həyata sahib olur;

Beləliklə, özünütəlqin etməyi bacaran insan, həyatının sükanını əlinə alan insandır.

Təkliflər və tövsiyələr:

- hər səhər və axşam özünüzə 3-5 dəqiqəlik müsbət ifadələr təlqin edin;
- güzgü qarşısında özünüzlə müsbət dialoqlar qurun;
- özünüzə yönəlik tənqidləri, mənfi aspektləri deyil, inkişaf yollarını düşünün;
- mənfi fikirlərinizi aşkarlayıb, onların yerinə müsbət təlqinlər yerləşdirin.

Silahlı Qüvvələrimizin, eləcə də Azərbaycan Ordusunun böyük əksəriyyətinin gənclər olduğunu nəzərə alsaq, şəxsi heyətdə istər nizam-intizam və qarşılıqlı münasibətlərin, istərsə də müxtəlif xidməti və döyüş tapşırıqlarının icrasına yönəldilmiş aşılaya biləcəyimiz müsbət özünütəlqinlərlə mütləq müvəffəqiyyəti zəmanət altına ala bilərik.

Növbəti yazılarımızda özünütəlqinin forma və metodları barədə geniş söhbət açacağıq.

**(Ardı var)**

***Məqalənin hazırlanmasında psixologiyaya aid müxtəlif vəsaitlərdən istifadə olunmuşdur.***

**Polkovnik-leytenant
Fərhad MƏCİDLİ**

*Görkəmli şəxsiyyətlər*

# Polkovnik Fərhad bəy Ağalarov



Fərhad bəy Əbülfət bəy oğlu Ağalarov 10 noyabr 1868-ci ildə Tiflis quberniyasının Qaraçalı kəndində zadəgan ailəsində anadan olub. O, ilk təhsilini Şuşa Realnı məktəbində alıb. 1886-cı ildə məktəbi əla qiymətlərlə bitirib, elə həmin ildə də Nikolayevsk Süvari Məktəbinə qəbul olub.

Hərbi idarənin 1873-cü il 4 aprel tarixli 105 saylı əmrində kursantların məktəbə qəbul olunduğu gündən həqiqi hərbi xidmətə qəbul edilməsi və hərbi andiçmələri barədə İmperatorun əmri elan edilir. Həmin il məktəbə daxil olan bütün kursantlarla birlikdə Fərhad bəy Ağalarov da 1886-cı il sentyabrın 3-də Hərbi andı içərək xidmətə başlayıb. 1888-ci ildə məktəbi 1-ci kateqoriya ilə (əlaçı olaraq) bitirib. Həmin ildə "kornet" rütbəsində 43-cü Tver Draqun alayına xidmətə göndərilib.

1891-ci ilin avqustun 7-də o, "poruçik" rütbəsinə layiq görülüb. Hərbi xidmətdə fərqləndiyinə görə 1898-ci ildə 3-cü dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə təltif edilib. 1904-cü ildə 5-ci Sahə Jandarm Eskadrilyasında xidmət edib. 1904-cü il iyununda "ştabs-rotmistr" rütbəsinə yüksəlib. 1905-ci ildə Ali Fərmanla 3-cü dərəcəli "Müqəddəs Anna" ordeni ilə təltif edilib. 1907-ci ildə İmperator Əlahəzrət Böyük Knyaqin Aleksandra İosifovnanın 6-cı Qluxovski Draqun Alayına köçürülüb. 1912-ci ildə 2-ci dərəcəli "Müqəddəs Anna" ordeni ilə təltif edilib.

Fərhad bəy Ağalarov 1914-1915-ci illərdə Birinci Dünya müharibəsində iştirak edib. 1916-cı ilin iyununda o, Qafqaz Hərbi Dairəsinin qərargahına göndərilib. 1916-cı il iyulun 16-da Qafqaz Hərbi Dairəsinin qərargahında ordu süvariləri sıralarında 29-cu Qafqaz təchizat batalyonunun komandiri təyin edilib.

1916-cı il noyabrın 6-da döyüşlərdə fərqləndiyinə görə podpolkovnik Fərhad bəy Ağalarov 2-ci dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə təltif edilib.

Birinci Dünya müharibəsindən sonra Fərhad bəy Ağalarov Qafqaz Müsəlman Korpusuna göndərilib.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqda sonra Milli Ordu sıralarında xidmətə başlayan polkovnik F.Ağalarov 1918-ci ilin sonunda AXC ordusunun 1-ci süvari alayının komandiri olub.

1919-cu il iyunun 17-də Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi Nazirinin tapşırıqları üzrə qərargah zabiti təyin edilib.



Fərhad bəy və həyat yoldaşı Sultan-Turan xanım 1901-ci il

1919-cu il avqustun 30-da polkovnik F.Ağalarov Azərbaycan Respublikası Hərbi Nazirinin əmri ilə Bakıdakı hərbi limanın komendantı təyin edilib.

Fərhad bəy Ağalarov Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra, 1921-ci ildə sürgünə göndərilib.

Məhəmməd Əmin Rəsulzadə 1923-cü ildə yazdığı "Azərbaycan Cümhuriyyəti keyfiyyəti-təşəkkülü və indiki vəziyyəti" kitabında Fərhad bəy Ağalarovu Azərbaycanın istiqlal şəhidi adlandırıb.

Fərhad bəy Bəhmən Mirzənin qızı Sultan-Turan xanımla ailəli olub. Onların Tamerlan bəy, Abbas bəy, İdris bəy adlı oğulları, Ziyaxanım adlı qızı olub.

**"Azərbaycan Ordusu"**

## Almaniyada Reyn çayının sahilində 125 min ilədək yaşı olan mamont dişi tapılıb

Almaniyanın Düsseldorf şəhərində, Reyn çayının sahilində 125 min ilədək yaşı olan mamont dişi tapılıb.

AZƏRTAC xəbər verir ki, həvəskar arxeoloq tərəfindən aşkarlanan dişin uzunluğu 30 santimetr, çəkisi 4 kiloqramdır.

Bonn şəhərindəki Torpaq Abidələrinin Qorunması İdarəsinin arxeoloqu Filip Şulte bildirib ki, dişin qorunma vəziyyəti qeyri-adi dərəcədə yaxşıdır və üzərindəki cızıqlar tipik xüsusiyyətlərdir. Dişin uzun müddət suda saxlanılması tələb olunur. Tapıntının deqradasiyasının qarşısının alınması üçün Rur muzeyində müvafiq işlər görülür.

Dişi tapan 44 yaşlı həvəskar arxeoloq illərdir Reyn çayının sahilində qədim əşyalar axtardığını, Roma və Kelt dövrlərinə aid bir sıra tapıntılar aşkarladığını bildirib. Onun kolleksiyasına sikkələr, saatlar və hələ partlamamış bombalar da daxildir.

Qeyd edək ki, 2012-ci ildə Düsseldorfda və Qelsenkirxen şəhərlərində inşaat işləri zamanı mamont dişləri aşkarlanıb.



# Xəbərlər: hadisələr, faktlar



### Türkiyə tərsanələrində təqribi dəyəri 300 milyon dollar olan 30-dan çox hərbi gəmi tikilir

Türkiyə tərsanələrində təqribi dəyəri 300 milyon dollar olan 30-dan çox hərbi gəmi tikilir.

Bu barədə jurnalistlərə Türkiyənin ən böyük texnologiya şirkətlərindən biri olan STM-in baş direktoru Özgür Güleryüz məlumat verib.

O xatırladıb ki, iki il əvvəl STM-in səyləri sayəsində TCG İSTANBUL (F-515) freqatı Türkiyə Hərbi Dəniz Qüvvələri komandanlığına təhvil verilib və idxalın 80%-ni əvəzləyib.

STM-in baş direktoru 2024-cü ilin sonunda şirkətin dövriyyəsinin 550 milyon dollar olduğunu və bu məbləğin 65-70%-nin ixracdan əldə olunduğunu bildirib.

Onun sözlərinə görə, hazırda Türkiyənin orta dəyəri 600 milyon dollara qədər olan hərbi gəmiləri ixrac etmək üçün hər cür imkanı var. STM şirkətinin Ukrayna, Malayziya, Portuqaliya və Pakistanla müqavilələri olduğunu vurğulayan Ö.Güleryüz deyib: "Bu, tamamilə əldə edilə bilən bir məqsəddir".

O, həmçinin STM mühəndislərinin perspektivli layihələrinə diqqət çəkib: 300 metrə qədər dərinlikdə işləməyə qadir olan avtonom, pilotsuz sualtı aparat hazırlanır. "Yeni aparat STM NETA adlanır. Layihə işlərinin 80 faizi artıq tamamlanıb. Biz hazırlığı tezliklə başa çatdırmağı planlaşdırırıq", - deyə baş direktor qeyd edib.

### Ukrayna kəşfiyyatçıları Krımda Rusiyaya məxsus 3 ədəd Mi-8 helikopterini məhv edib



Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsinin hava hücumu nəticəsində müvəqqəti işğal olunmuş Krımda Rusiyanın 3 ədəd Mi-8 helikopteri və "Nebo-U 55J6U" radarı məhv edilib.

Bu barədə Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsi məlumat yayıb.



### Cənubi Koreya, ABŞ və Yaponiya "Freedom Edge" adlı üçtərəfli hərbi təlimləri keçirib

Cənubi Koreya, ABŞ və Yaponiya silahlı qüvvələri "Freedom Edge" (Azadlıq Qalxanı) adlı üçtərəfli hərbi təlimləri keçirilib.

"Yonhap" agentliyinin məlumatına görə, təlimlər 15-19 sentyabr tarixlərində Cənubi Koreyanın Çedjudo adasından cənub-şərqdə yerləşən beynəlxalq sularda keçirilib.

Manevrlərin əsas xüsusiyyəti eyni vaxtda dənizdə, havada və kibərməkanda həyata keçirilməsi olub. Təlimlər çərçivəsində raket və hava hücumundan müdafiə üzrə əməliyyatlar, həmçinin tibbi təxliyə və dənizdə müdaxilə ssenariləri icra olunub.

Cənubi Koreyanın Birləşmiş Qərargah Rəisləri Komitəsindən bildirilib ki, təlimlər KXDR-dən qaynaqlanan nüvə və raket təhdidlərinə cavab olaraq təşkil olunub.

Qeyd edək ki, "Freedom Edge" təlimləri bu ad altında keçirilən üçüncü təddirdir. Əvvəlki analoji təlimlər 2024-cü ilin iyun və noyabr aylarında baş tutub.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman



### Azərbaycan taekvondoçuları Polşada 3 medal qazanıblar

Azərbaycan taekvondoçuları Polşada keçirilən "Polish Open" turnirində 3 medal qazanıblar.

Qadınlar arasında Minayə Əkbərova (46 kiloqram) bütün rəqiblərini üstələyərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Kişilərin yarışında isə Qaşım Maqomedov (63 kiloqram) və Cavad Ağayev (80 kiloqram) bürünc mükafata sahib çıxıblar.

### Yunan-Roma güləşi üzrə Azərbaycan millisi dünya ikincisi olub



Xorvatiyanın paytaxtı Zaqrebdə keçirilən güləş üzrə dünya çempionatına yekun vurulub.

Mötəbər yarışda 1 qızıl, 1 gümüş və 2 bürünc medal qazanan yunan-Roma güləşi üzrə Azərbaycan millisi 89 xalla komanda hesabında dünya ikincisi olub. İran (180) birinci, Özbəkistan (72) isə üçüncü yeri tutub.

Xatırladaq ki, yığmanın tərkibində Ülvü Qənizadə (72 kiloqram) qızıl, Həsrət Cəfərov (67 kiloqram) gümüş, Eldəniz Əzizli (55 kiloqram) və Murad Əhmədiyev (97 kiloqram) bürünc medal qazanıb.



### İlham Zəkiyev 9-cu dəfə Avropa çempionu olub

Azərbaycan paracüdoçusu İlham Zəkiyev doqquzuncu dəfə Avropa çempionu olub.

O, (J1, +95 kq) Gürcüstanın paytaxtı Tbilisidə keçirilən turnirin 1/4 finalında moldovalı Oleq Kretulu, yarımfinalda türkiyəli Gökhan Biceri, həlledici görüşdə isə moldovalı İon Basoku ipponla məğlub edərək karyerasında 9-cu dəfə Avropa çempionu olub.

### Azərbaycan paraüzgüçüsü dünya çempionu olub



Azərbaycan paraüzgüçüsü Roman Saley (S12 kateqoriyası) Sinqapurda keçirilən dünya çempionatında qızıl medal qazanıb.

O, yarışın ilk günündə 100 metr məsafəyə arxası üstə üzmə yarışında fərqlənib.

Finişə 1:01.58 nəticə ilə birinci çatan idmançı dünya çempionu olub.

**AZƏRTAC-ın materialları əsasında**

Qayıbov Atakişi Elman oğluna verilmiş MV № 109611 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
2 saylı Xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
kapitan
Fuad CƏFƏROV

Lisenziya № 361
Sifariş № 484
Nüsxə 3630